# AZƏRBAYCANDA BALIQÇILIQ VƏ AKVAKULTURA SƏNAYESİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Rauf Hacıyev**

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı*

Ulu Öndər Heydər Əliyevin yüksək idarəçilik məharəti və görkəmli siyasi lider kimi nüfuzu müstəqilliyimizi bərpa etməyə və dövlətçiliyimizi daha da möhkəmlətməyə imkan verdi. Xalqımızın Ümummilli Lideri, dahi şəxsiyyət, dünya miqyaslı siyasətçi Heydər Əliyevin ölkəmizin zəngin təbiətinin qorunması sahəsində də xidmətləri misilsiz olmuşdur. Dahi Öndərimiz Azərbaycanın ekoloji problemlərini və qayğılarını daim diqqət mərkəzində saxlamış, dövlətin ekoloji siyasətinin beynəlxalq təcrübəyə və sivil dünyanın normalarına uyğunlaşdırılmasını, ətraf mühitin mühafizəsinin təkmilləşdirilməsini, iqtisadi fəaliyyətin ekoloji cəhətdən əsaslandırılmasını müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmağı mühüm vəzifə kimi irəli sürmüşdür.

Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası müxtəlif illərdə ekoloji təmiz ərzaq məhsulları istehsalı, fauna və floranın qorunması və davamlı inkişafı, ətraf mühitin mühafizəsi və bu qəbildən olan bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur və üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirir.

Azərbaycan Respublikasının balıqçılıq təsərrüfatı milli iqtisadiyyatda kompleksli və mühüm sosial əhəmiyyətli sektor olaraq qalır. Balıqçılıq təsərrüfatı ölkənin sahil ərazilərinin inkişafı üçün təməldir və özündə fəaliyyət növlərinin geniş spektrini – xammal mənbələrinin proqnozlaşdırılmasından tutmuş ölkədə və xaricdə balıq məhsullarının ticarətinə qədər sahələri birləşdirir.

Azərbaycan Respublikasında balıqçılığın təşkili, idarə edilməsi, balıq ehtiyatlarının artırılması, istifadəsinin və mühafizəsinin hüquqi əsasları 1998-ci ildə qəbul edilmiş "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Azərbaycanda balıqçılıq təsərrüfatı və akvakultura sektorunun siyasi, hüquqi və institusional əsaslarının möhkəmləndirilməsi məqsədilə, FAO-nun texniki dəstəyi ilə 2014-cü ildə "Balıqçılıq haqqında" Qanun təkmilləşdirilmişdir. Nəticədə bu yenilənmiş Qanun vasitəsilə biz indi nəinki təbiətdə olan balıq ehtiyatlarının bərpa olunması, habelə ölkəmizdə əmtəə akvakulturasının inkişaf etdirilməsi imkanlarını da əldə etmişik.

Xəzər dənizində bioloji resursların idarə olunması məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Milli Proqram tərtib edilmişdir. Milli Proqramın fəaliyyət istiqamətinə müvafiq olaraq, Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış "İnkişaf üçün kredit haqqında Saziş"in təsdiq edilməsi barədə Ulu Öndər Heydər Əliyevin 1998-ci il 28 sentyabr tarixli, 898 saylı Sərəncamına və həmin "Saziş"in şərtlərinə əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasında Təxirəsalınmaz Ekoloji İnvestisiyalar Layihəsi çərçivəsində ekoloji layihələr həyata keçirilməyə başlanmışdır.

Məhz Ulu Öndərin düşünülmüş və uzaqgörən siyasətinin nəticəsi olaraq, 2003-cü ildə Dünya Bankı tərəfindən maliyyələşdirilən "təxirəsalınmaz ekoloji investisiyalar" layihəsi çərçivəsində nərəkimilərin ehtiyatlarının qorunub saxlanılması məqsədilə Xıllı nərə balıqartırma zavodu Ümummilli Lider Heydər Əliyevin təklifi üzrə qurulmuş və onun davamçısı Prezident İlham Əliyev tərəfindən 2003-cü ildə tikilib istismara verilmişdir.

Müasir tipli texniki avadanlıqlarla təchiz olunmuş Xıllı nərə balıqartırma zavodu əsasən nərəcinsli balıqların dörd növünün – bölgə, nərə, kələmo və uzunburun balıqlarının süni yolla artırılması ilə məşğul olur. Fəaliyyət göstərdiyi illər ərzində zavod tərəfindən ümumilikdə 75 milyon ədədə yaxın müxtəlif növlü nərə cinsli balıq körpələri yetişdirilmiş, standart ölçü və kütləyə malik olduqdan sonra Kür çayının mənsəbinə buraxılmışdır. Müasir Xıllı nərə balıqartırma zavodunda süni yetişdirilmiş 8000 ədəd müxtəlif yaş qrupuna mənsub nərə cinsli balıqlardan ibarət təmir-törədici fond yaradılmışdır. Bununla da dənizdəki ana balıq qıtlığından asılılıq getdikcə azalır.

1993-cü ildən başlayaraq, Azərbaycan beş Xəzəryanı ölkə tərəfindən təsis edilmiş "Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi, səmərəli istifadəsi və onların birgə ehtiyatlarının idarə olunması üzrə Komissiya"nın işində iştirak edir. Komissiyanın proqramlarına uyğun olaraq, Xəzərin Azərbaycan sektorunda nərə cinsli və digər vətəgə əhəmiyyətli balıq növlərinin mövcud ehtiyatının vəziyyətini, yay mövsümündə yayılmasını, sayını, onların yem bazasının vəziyyətini öyrənmək məqsədilə hər ilin yay aylarında "Əlif

Hacıyev" elmi-tədqiqat gəmisi ilə tədqiqat işləri təşkil edilir. Bu işlər əsasında hər il Nazirlər Kabinetində müxtəlif növ balıqların sənaye ovuna kvotalar təsdiq olunaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən əhali üçün ayrılır.

Brakonyerliklə mübarizə üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti və Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarının iştirakı ilə birgə kompleks tədbirlər görür. Yaxın zamanlarda Azərbaycan və digər Xəzəryanı ölkələr tərəfindən Xəzər dənizində qanunsuz balıq ovuna (brakonyerliyə) qarşı birgə proqram üzrə protokolun imzalanıb qəbul edilməsi gözlənilir.

Xəzər dənizinin ekosisteminə antropogen təsirlərin azaldılması üçün təkcə brakonyerliklə mübarizə və bu istiqamətdə birgə fəaliyyət kifayət etmir. Son dövrlərdə dünya təcrübəsi və tendensiyalar balıqçılıq fəaliyyətində balıqovlamadan balıqyetişdirməyə, yəni akvakulturaya keçmənin alternativinin olmadığını təsdiq edir.

2010-cu ildən başlayaraq, Azərbaycan Respublikası FAO və regionun bir sıra ölkələri ilə balıqçılıq təsərrüfatı və akvakulturanın inkişafı sahəsində qarşılıqlı şəkildə əməkdaşlıq aparır. 2014-cü ildən Azərbaycan FAO-nun nəzdindəki "Mərkəzi Asiya və Qafqazda balıqçılıq təsərrüfatı və akvakultura sahəsində regional Komissiya"nın (CACFish) üzvüdür.

Azərbaycan Respublikası üçün FAO tərəfindən milli ekspertlərin iştirakı ilə Ölkə Proqram Çərçivəsi üçün balıqçılıq və akvakulturanın inkişafına dair milli prioritetlər, məqsədlər və vəzifələr müəyyən edilmişdir.

Ulu Öndər Heydər Əliyev tərəfindən müstəqilliyinin və dövlətçiliyinin əsası qoyulmuş vətənimiz Azərbaycan inkişaf etməkdə olan iqtisadiyyata və ənənəvi inkişaf etmiş neft sektoruna malik olan ölkə kimi, həmçinin balıqçılıq təsərrüfatı sahəsinin – akvakultura və marikulturanın inkişafına da böyük əhəmiyyət verir.

2019-cu ildən başlayaraq, ölkədə ümumən 700-ə qədər balıqçılıq subyekti müəyyən edilmiş, onların mövcud vəziyyəti, yerləşdiyi torpaq sahəsi və su obyektinin təhlili və qiymətləndirilməsi həyata keçirilmişdir. Yerləşdiyi torpağın təyinatının uyğunluğu əsasında balıqçılıq subyektlərinin akvakultura üzrə dövlət qeydiyyatına alınması üçün müvafiq sənədləşmə işləri aparılaraq qeydiyyata alınması barədə şəhadətnamələr verilmişdir.

Müasir dövrdə Azərbaycan Respublikasında balıqçılıq və akvakultura sektorunun gələcək inkişafı beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğun olmalıdır. Hazırda bu sahənin inkişafı məqsədilə dövlət proqramı hazırlanıb. Bu da ölkəmizin balıqçılıq və akvakultura sektorunun inkişafına təkan verilməsi üçün imkan yaradacaqdır.

Son zamanlarda Azərbaycanın iqtisadi, sosial sahədə inkişafı, dövlətçilik amillərinin möhkəmlədirilməsi, xarici və daxili siyasətinin uğurlu tərəqqisi dövlətçiliyimizin və müstəqilliyimizin uğurlu davamının təminatçısı olan Prezident cənab İlham Əliyevin adı ilə bağlıdır. Bu gün ölkəmizdə əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu işləri, istehsal və sosial infrastrukturun inkişafı istiqamətində işlər daha geniş vüsət almışdır. Ölkə iqtisadiyyatı dinamik inkişaf edir və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı tədbirlər qarşıdan gələn illərdə də ölkəmizin daha sürətli sosial-iqtisadi inkişafını və vətəndaşlarımızın yaşayış səviyyəsinin yüksəldilməsini təmin edəcəkdir.